**“AĞCABƏDİ, AĞDAM, TƏRTƏR VƏ GORANBOY RAYONLARINDA MƏCBURİ KÖÇKÜN İCMALARINDA PARTLAYICI SURSATLARIN TƏHLÜKƏSİNƏ DAİR MAARİFLƏNDİRMƏ” LAYİHƏSİ**

# HESABAT

**Layihənin başlama vaxtı:** **Layihənin bitmə vaxtı:**

**10 avqust 2022-ci il** **31 dekabr 2022-ci il**

**2022**

## ANAMA TƏLİMATÇILARININ KEÇİRDİYİ TƏLİM

Qaçqın və məcburi köçkünlərin Böyük Qayıdışına hazırlıq məqsədi ilə Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) tərəfindən ANAMA və BMT-nin Qaçqınlar üzrə Ali Komisarlığının birgə əməkdaşlığı nəticəsində həyata keçirilən Ağcabədi, Ağdam, Tərtər və Goranboy rayonlarında "Partlayıcı SursatlarınTəhlükəsinə dair Marifləndirilmə" (PSTM) layihəsinə start verildi.
İlk növbədə Beynəlxaq Avrasiya Mətbuat Fondu icmalarda rayonlar üzrə təlim keçəcək şəxsləri müəyyən etmək üçün seçim prosesinə başladı və yeddi nəfərdən ibarət heyət müəyyənləşdirdi.




25.08.2022-ci il tarixində ANAMA-nın mina təhlükəsinə dair aparıcı mütəxəssisləri, BAMF layihəsinin əməkdaşlarına Beynəlxaq Avrasiya Mətbuat Fondunun Tərtər rayonunda yerləşən Peşə Təlim Mərkəzində iki günlük təlim keçdilər. ANAMA-nın peşakar təlimçiləri iki gün ərzində layihə əməkdaşlarını mina təhlükəsinə dair tam təlimatlandırdılar. Tədbirin ilk günündə Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Mirzəyev də iştirak etdi, təlim iştirakçılarına işlərində uğurlar dilədi.




## TƏRTƏRİN ŞIXARX QƏSƏBƏSİNDƏKİ İLK TƏLİM

Layihə heyətinin ilk iclası keçirildi, hədəflər müəyyənləşdirildi və görüləcək işlərə uyğun iş bölgüsü aparıldı.

Beləliklə, 12.09.2022-ci il tarixində ilk görüşümüzü Tərtər rayonunun Şıxarx qəsəbəsində həyata keçirdik. Şıxarx qəsəbəsində Dövlətimiz qaçqınlar üçün 36 bina inşa edib. 36 binada 1176 ailə 4782 sakin yaşayır. Tərtər rayonu üzrə, ümumən, 10782 köçkün yaşayır.

İlk görüşümüz olduğundan çox həyacanlı idik, təlim keçəcəklərimiz arasında döyüş yolu keçmiş qazilərimiz, müəllimlər və rəhbər işçilər var idi. Amma özümüzdə güc tapıb ilk marifləndirmə iclasımıza başladıq. Şıxarx qəsəbə sakinləri ilə görüşümüz çox maraqlı və məhsuldar oldu. Sevindirici hal o idi ki, təlim iştirakçıları bizlərin çıxışına diqqətlə qulaq asır və mina təhlükəsinə dair daha çox məlumat almaq istəyirdilər. Görüş iştirakçılarının aktiv olanlarından icma fəalları seçildi.









# ŞIXARX İCMA FƏALLARI ÜÇÜN TƏLİM

13.09.2022- ci il tarixində Şıxarx qəsəbəsində keçirdiyimiz görüşün fəallarından ibarət heyəti Beynəlxalq Avrasiya Mətbuat Fondunun Tərtər rayonunda yerləşən Peşə Təlim Mərkəzinə dəvət etdik. Onlara təlim keçdik. Təlim zamanı fəallara görəcəyi işlər barəsində məlumatlar verdik. Hədəfimiz Şıxarx və Bəyəmsarov icmaları daxilində bütün əhali qruplarını əhatə etməkdir. Maarifləndirmə kompaniyasını qadınların və qızların daha ciddi şəkildə cəlb edilməsi üçün yönləndirdik. Çünki onlar ərazilərimizin çirklənməsi haqqında az məlumatlıdırlar.










Qərara alındı ki, icma fəalları keçirəcəkləri ilk görüşləri təlimçilərin iştirakı ilə keçirsinlər və günün sonunda görülən işlərin hesabatını versinlər. Həmçinin tövsiyə olundu ki, görüşlərə xanımlarımız daha çox cəlb olunsun.

# ŞIXARX QƏSƏBƏSİNİN SAKİNLƏRİ İLƏ GÖRÜŞLƏR

Şıxarx qəsəbəsində icma fəallarının iştirakı ilə ilk məhəllə görüşlərinə başladıq. Böyük Qayıdış nümayəndələri bizləri çox mehriban qarşılayır və maksimum məlumatlar almaq istəyirdilər. Doğma yurdlarına qayıdacaq insanlarımız onları maarifləndirdiyimizə görə bizlərə minnatdarlıqlarını bildirirdilər.





Tərtər rayonu Şıxarx qəsəbəsində görüşlərin təşkilində Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi mənzil istismar sahəsinin rəisi Qurbanov Bəkir, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət KomitəsininTərtər rayonu üzrə sektor müdiri Nəzərov Möhlət, Ağdam rayonu 107 saylı köçkün ümumi orta məktəbin direktoru Alıyev Vəfadar və Şıxarx 2 nömrəli kənd tam orta məktəbin direktoru Musayeva Gülanə xanım kollektivləri ilə birgə daim bizə dəstək oldular.





## AĞDAMIN ALIBƏYLİ- 1 QƏSƏBƏSİNDƏ SAKİNLƏRLƏ GÖRÜŞ

**22.09.2022 ci** il tarixindən etibarən Ağdamın köçkün qəsəbələrində görüşlərimizə başladıq. Ağdam rayonunda görüşlərimizin təşkilində Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin Ağdam rayon üzrə sektor müdiri Nəcəfov Mətləb, Ağdam rayon musiqi kollecinin hərbi rəhbəri Qəhrəmanov Cahangir, Ağdam rayon Bənövşələr qəsəbəsi 2 saylı köçkün tam orta məktəbin direktoru Vəlimәmmədova Tünzalə xanım və Ergi qəsəbəsinin orta məktəbinin müəllim kollektivi hər zaman bizə dəstək olublar. Məlumat üçün bildirək ki , Ağdam rayonunda köçkünlərimizin əsas hissəsi - 5641 ailə 25106 sakin, dövlətimizin inşa etdirdiyi on səkkiz qəsəbədə yaşayır. Köçkünlərin bir hissəsi isə bağçalarda və dövlət idarələrində yaşayır. Onların sayı 2340 ailə, yəni 8849 nəfərdən ibarətdir. Ağdam rayonunda məskunlaşan ümumi köçkünlərimizin sayı 33955 nəfərdir.




Ağdamın qəsəbələrində gündəlik görüşlər keçirməyə başladıq. İlk görüşümüzü Alıbəyli 1 qəsəbəsində keçirdik. İlk tədbirin təşkilatçısı Ağdam rayonu Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin sədri Mətləb Nəzərov oldu. Tədbirimizi açıq elan edib, bizlərə uğurlar dilədi. Böyük Qayıdışın gələcək iştirakçıları, mina təhlükəsizliyini mənimsəməyə çox maraqlı idilər. Beləliklə, Ağdamın qəsəbələrində gündəlik görüşlərimizi keçirməyə , aktiv tədbir iştirakçılarından icma fəalları seçməyə başladıq. İcma fəallarının sayı artdıqca, işimizin keyfiyyəti artır və hər bir sakin artıq təlimçi olmağa başlayırdı.




# AĞDAMDA BİR AİLƏNİN FACİƏSİ

Ağdamın Qasımbəyli qəsəbəsində keçirilən görüş zamanı məlum oldu ki, tədbir iştirakçılarından Əliyev Əlinin ailə üzvləri minadan zərər çəkiblər. Uşağın danışdıqları bizləri dəhşətə gətirdi. Əlinin babası Əfətli kənd sakini Hüseynov Akif, oğlanları Hüseynov Razi, Hüseynov Bayram, Hüseynov Anar və qonşuları Abdulov Bəhruz kənar şəxslərin girişinə qadağan edilmiş Yusifcanlı kənd qəbiristanlığında dəfn olunmuş qohumlarını ziyarətinə gediblər. İlk olaraq onlardan biri minaya düşüb. Sonra isə onu xilas etməyə gələn qohumlarının hamısı minaya düşüb.

Hadisə nəticəsində Hüseynov Razi Akif oğlu və Hüseynov Bayram Akif oğlu həlak olur və digər üç nəfər isə müxtəlif bədən xəsarətləri alır. Məsuliyyətsizlik nəticəsində bir ailədə böyük bir faciə baş verir. Əgər vaxtında düzgün addım atılmış olsaydı, faciənin miqyası kiçilərdi. Minaya düşən varsa, əlavə bir addım atmağa ehtiyac yoxdur, 102 və ya 112-yə zəng etmək kifayət edir. Biz təlimçilərin əsas məqsədi və vəzifəsi insanlarımıza mina ilə bağlı düzgün təlimat verməkdən ibarətdir. Çalışdığımız odur ki,mina mariflǝndirmǝsi sayǝsindǝ mina hadisǝlǝrinin sayı minimuma düşsün.








## AĞDAMIN ERGİ QƏSƏBƏSİNDƏ GÖRÜŞLƏRİMİZ

Ağdamın Ergi qəsəbəsində görüşlər zamanı sakinlər biz təlimçiləri ən əziz adamları kimi qarşılayırdılar. Təlimdən sonra çay süfrəsində müzakirələrimizi davam etdirirdik. Görüşlər əsnasında BAMF ailəsi olaraq qərara gəldikki, köçkün qəsəbələrində idmanın inkişafı məqsədi ilə məktəblərə idman növlərinə uyğun toplar hədiyyə edək. Biz Ergi məktəbinə top hədiyyə edən zaman müəllimlərdən gözəl bir təklif gəldi. Təklif ondan ibarət idi ki, bu topu ilk dəfə olaraq BAMF təlimçiləri ilə Ergi məktəbinin kollektivi arasında voleybol yarışı keçirərək istifadə edək. Təklif qəbul olundu və özəl bir oyun keçirdik.









**BAMF 1 - Ergi 1**

**Dostluq qalib gəldi.**

**GORANBOY RAYON 6 KÖÇKÜN QƏSƏBƏSİNİN**

**FƏALLARI İLƏ ÜMUMİ GÖRÜŞ**

Sentyabr ayının sonunda Goranboy rayonunda yerləşən köçkünlərlə görüşlərimizə start verdik. Görüşlərin təşkilində Goranboy rayonu qaçqınlarla iş üzrə komitəsinin sədri Mehman Binnətov, Məcburi köçkünlərin Goranboy rayonu üzrə mənzil kommunal istismar sahəsinin rəisi Çobanov Seymur və Goranboy rayon Yeni Veysli qəsəbə icra nümayəndəsi Hüseynov İslam daim dəstək göstəriblər. Məlumat üçün bildirək ki, Goranboy rayonunda köçkünlər üçün altı qəsəbə salınıb. Bunlardan beşi kənd tipli, biri isə şəhər tipli qəsəbədir. Altı qəsəbədə 1942 ailə, yəni 7410 sakin yaşayır. İlk görüşümüz Goranboy rayonu hündürmərtəbəli yaşayış massivində oldu. Bu görüşdə iştirak edənlər, əsasən, Goranboy rayonunda yerləşən altı köçkün qəsəbəsində dövlət strukturlarında çalışan əməkdaşlar idi. İştirakçılar arasından qəsəbələr üzrə icma fəallarını seçdik və icma fəalları ilə qəsəbələrdə keçiriləcək görüşlərin qrafikini tutduq.









# YENİ VEYSLİ QƏSƏBƏSİNDƏKİ TƏLİMLƏR

Goranboy rayonu Yeni Veysli qəsəbəsindəki görüşümüzün təşkilatçısı qəsəbə icra nümayəndəsi Hüseynov İslam oldu. Başda İslam bəy olmaqla Yeni Veysli sakinləri təlimlər zamanı öz fəallıqları ilə seçilirdi və həmçinin görüşün əsas iştirakçıları qəsəbənin fəal insanları idi. Görüş iştirakşıları arasından yeni icma fəalları seçildi.

Yeni Veysli qəsəbə görüşlərinin birində diqqətimizi çəlikli bir qardaşımız cəlb etdi. Görüşdən sonra qardaşımıza yaxınlaşıb hal-əhval tutdum. Söhbət zamanı məlum oldu ki, Musayev İsa oğlu 2022-ci ildə fermer kimi heyvanlarını Kəlbəcər rayonunda yerləşən yaylağa aparıb. 2022-ci ilin sentyabr ayının 12-dən 13-ə keçən gecə atəş səsi eşidib. Ermənilərin atdığı top mərmilərindən biri onlarınyaxınlığına düşüb. Mərmi qəlpələrindən biri onun diz nahiyəsinə dəyib.Asim bəy atəşkəs dövründə erməni yaramazlığının qurbanı olub. Nəticədə dizindən zədə aldığına görə çəliklə gəzmək məcburiyyətində qalıb və iş fəaliyyətini itirib.









**GORANBOY RAYONU YENİ VEYSLİ QƏSƏBƏSİNDƏ TƏLİMLƏRİMİZ DAVAM EDİR**

Yeni Veysli qəsəbə bağçasının rəhbəri Murtuzayeva Lamiyə xanımın rəhbərliyi ilə görüş keçirildi. Görüşün iştirakçıları bağçanın müəllim heyəti və texniki işçilər idi. Maraqlı məqam o idi ki, Lamiyə xanım və bağçanın əməkdaşları körpələrin oturacaqlarında oturub biz təlimçilərə diqqətlə qulaq asırdılar. İcma fəalları kimi seçilmiş xanımlarımıza körpələrimizin valideynlərini maarifləndirməyi tapşırdıq.



Yeni Veysli və şəhər tipli qəsəbənin orta məktəblərinin müəllim və şagird kollektivi maarifləndirmədə aktiv iştirak edirdilər. Məktəbdə idmanın inkişafı və balalarımızın sağlam böyüməsi üçün idman siniflərinə toplar hədiyyə etdik.





## AĞCABƏDİ RAYON TAXTA KÖRPÜDƏ TƏLİMLƏRİMİZ

**20.10.2022-**ci ildə dördüncü yəni Ağcəbədi rayonu  Taxta körpü qəsəbəsində yerləşən köçkün qəsəbələrində görüşlərə başladıq. Görüşlərin keçirilməsində rayonun Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin Laçın rayonu üzrə nümayəndəsi Mirzəyev Tural, Taxtakörpü qəsəbə tam orta məktəbin direktoru Uğurlu Şəbnəm, həmin məktəbin sinifdənxaric işlər üzrə təşkilatçı müavin Təhməzova Gülşən xanım daim dəstək göstəriblər. Taxta körpü altı dövlət tərəfindən salınmış köçkün qəsəbəsindən və Laçın obalarından ibarətdir. Ümumən, qəsəbələrdə 2719 ailə, yəni 9110 sakin yaşayır. İlk görüşümüzü 552 saylı qəsəbədə başladıq. Əksər görüşlərimizdə Tural bəy iştirak edirdi. Tədbirlərdə görüş iştirakçıları fəallıq göstərir, Böyük Qayıdış zamanı doğma torpaqlarda baş verə biləcək mina təhlükəsi zamanı atacaqları addımları öyrənirdilər. Görüşlər zamanı icma fəalları seçilir və onların sakinlərlə mariflәndirmə işi aparmaları üçün tam maarifədirirdik.












## TAXTA KÖRPÜ ORTA MƏKTƏBİNDƏ İCMA FƏALININ KEÇİRDİYİ TƏLİM




Taxta körpü tam orta məktəbin direktoru Uğurlu Şəbnəm xanım və onun müavini Təhməzova Gülşən xanımın təşkilatçılığı sayəsində məktəbdə mütamadi maarifləndirmə layihəsi həyata keçirilirdi. Xanımlarımız sinif otaqlarından birində mina maarifləndirmə guşəsi yaradıblar. Gülşən xanım icma fəalı kimi mütamadi olaraq məktəblilər və onların valideyləri ilə mina təhlükəsizliyinə dair mariflǝndirmǝ işləri aparır. Taxta körpüdə yerləşən Laçın rayonundan olan köçkünlərimiz 2023- cü ildə olacaq ilk köçü səbirsizliklə gözləyirlər.



# TƏBLİĞAT VASİTƏLƏRİ İLƏ MAARİFLƏNDİRMƏ

Maarifləndirmənin ən aktiv hissəsi təbliğat vasitələrinin bizlərə çatdırılma dövründən sonra oldu. BMTQAK, ANAMA və BAMF–ın birgə məsləhətləşməsi sayəsində mükəmməl təbliğat vasitələri əldə etdik. Buklet, plakat, blaknot və qələmlərin vaxtında bizə çatdırılması işimizə çox yaradı. Hər bir sakin üçün bukletdə, plakatda hərbi sursatları və minaları görmək böyük maraq doğururdu. Elə hallar olurdu ki, sakinlər bukletdən yaxınlarının marifləndirməsi üçün də götürürdü. Məktəblərin girişi və hərbi sinif otaqlarında plakatlar vurulurdu. Təbliğat materialları  paylandıqdan sonra icma fəallarının işində bir dönüş yarandı. Sözlə dediyimiz mina və hərbi sursatı artıq buklet və plakatlarda rahat göstərə bilirdilər. Olduğumuz hər yerdə ancaq minnatdarlıq sözlərini eşitdik. Bu da bizi daima ruhlandırırdı.






Payladığımız bukletlər və plakatlar artıq dərs vəsaitinə çevrilib. Hər bir məktəblinin çantasında buklet görmək olar. Uşaqlar dərslərini həvəslə təlimçilərin verdiyi qələmlərlə yazırlar.






# TƏRTƏR ŞIXARX GÖRÜŞÜNÜN MONİTORİNQİ



28.11.2022-ci il tarixində Şıxarx qəsəbəsində növbəti görüşlərdən birini keçirdik. Bu görüşdə Birləşmiş Millətlər Təşkilatının  Qaçqınlar üzrə Ali Komisarlığının əməkdaşları İlkin Abdiyev və Tural Abbasov da iştirak etdi. Görüş iştirakçıları arasında icma fəalları və təlimimizdə ilk iştirak edən sakinlərimizdə var idi. İcma fəalı Alıyev Nofəl hesabat xarakterli çıxış etdi və keçirdiyi təlimlərdən söz açdı. O, qəsəbə sakinlərinə və işlədiyi məktəbin müəllim və şagirdlərinə təlim keçdiyini bildirdi. Sonra isə söz təlimçi Binnətov Raula verildi. Raul bəy Şıxarx sakinlərinə təlim keçdi.



## AĞCABƏDİ TAXTA KÖRPÜ GÖRÜŞÜNÜN MONİTORİNQİ



29.11.2022- ci il tarixində Ağcəbədi rayonu Taxta Körpü qəsəbəsində Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komisarlığının əməkdaşları İlkin Abdiyev, Tural Abbasov və Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin Laçın rayonu üzrə nümayəndəsi Mirzəyev Tural bəyin iştirakı ilə növbəti görüş keçirildi. Görüşdə icma fəalları və yeni sakinlər iştirak edirdi. Tədbir iştirakçılarını salamlayıb təlimi aparmaq üçün söz icma fəalı Gülşən Təhməzovaya verildi. Gülşən xanım yeni sakinlərə təlim keçdi və ardından Tural Abbasov BMT QAK-ın bu illər ərzində köçkünlərimiz üçün gördükləri işlər barədə məlumat verdi.



Görüşlərimizin təşkilində Laçın rayonu Vaqazin kənd 1 saylı tam orta məktəbin direktoru Zakir Mamedovun və Ağcəbədi rayonu qeydiyyat şöbəsinin rəisi və Laçın rayonu üzrə rəis əvəzi Əhmədov İslam bəyin xüsusi əməyi var.

## GORANBOY YENİ VEYSLİ GÖRÜŞÜNÜN MONİTORİNQİ




30.11.2022-ci il tarixdə Goranboy rayonunun Yeni Veysli qəsəbəsində növbəti görüşlərdən birini keçirdik.Görüşdə Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komisarlığının əməkdaşları Tural Abbasov, İlkin Abdiyev və Yeni Veysli icra numayəndəsi Hüseynov İslamiştirak edirdi. Təlimçi Raul Binnatzadə görüş iştirakçılarına təlim keçdi və daha sonra söz BMT QAK-ın nümayəndəsi Tural Abbasova verildi.Tural bəy Böyük Qayıdışın nümayəndələrin salamladı.BMT QAK-ın illər boyu köçkünlərimiz üçün gördükləri işlərdən danışdı.Tədbir iştirakçıları maarifləndirmə layihəsinin onlar üçün böyük önəm daşıdığını bildirdilər.



## SEVİMLİ MÜƏLLİMLƏRİMİZ ÜÇÜN TƏLİMLƏR



Maarifləndirmə layihəsi hər kəs tərəfindən rəğbətlə qarşılanırdı. Amma biz təlimçilər üçün ən məsuliyyətli iş sevimli müəllimlərimizə təlim keçmək idi. Çox sağ olsunlar ki,bizim keçirdiyimiz təlimləri mükəmməl mənimsəyirdilər. Ən əsası müəllimlərimiz icma fəalı kimi çox aktiv idilər. Onlara verdiyimiz tapşırıqları layiqincə yerinə yetirirdilər. Maarifləndirmə işində bizə dəstək olduqlarına görə, müəllimlərimizə xüsusi minnatdarlıq düşür.



## ANALARIMIZIN MAARİFLƏNDİRMƏ LAYİHƏSİNDƏ İŞTİRAKI





Analarımızın mina marifləndirməsi layihəsində xüsusi rolu var. Görüşlər zamanı bizlərə göstərdikləri şirin münasibət ürək açan idi. Qarabağın xüsusi ləhçəsində dedikləri sözlər “Ay bala, ac-susuz nə düşmüsüz çöllərə? Gəlin, bir tikə çörək yeyin, sonra işləyərsiniz”. Goranboy rayonunda yerləşən qəsəbələrdən birində Kəlbəcərli köçkün yaşlı anamız bizləri motal pendiri ilə sac çörəyinə qonaq etdi. Ürəyi soyumayan anamız bizim üçün sacda fəsəli də bişirdi. Budur Azərbaycanlı (TÜRK) qadınının rəhmli ürəyi. Ən böyük arzumuz görüşdüyümüz köçkün analarımızla onların doğma yurdlarında görüşməkdir.





## İDMANÇILARIMIZA MİNA TƏLİMİ





Ağdam rayonunun məcburi köçkün qəsəbələrində mina təhlükəsinə dair maarifləndirmə tədbirləri zamanı biz daha çox insanı maarifləndirmək məqsədi ilə məcburi köçkünlərin birgə toplandıqları yerlərdə olurduq. Bu yerlərdən biri də oradaki yeniyetmələrin idmanla məşğul olduqları İdman Klubları idi. Biz oradakı yeniyetmələrlə görüşlər keçirdib mina təhlükəsinə dair onları məlumatlandırırdıq. Gələcəyin əsgərləri bu təlimlərə olduqca böyük maraq göstərir və bizlərdən aldıqları məlumatları mümkün qədər çox insan ilə paylaşacaqları barədə söz verdilər.





# 8 NOYABR ZƏFƏR GÜNÜNDƏ TƏLİM

Tərtər rayon Şıxarx qəsəbəsində 8 Noyabr Zəfər Günü münasibətilə tədbir təşkil olunmuşdur. Tədbirdə qəsəbənin rəhbər işçiləri, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi mənzil istismar sahəsinin rəisi Qurbanov Bəkir, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin Tərtər rayonu üzrə sektor müdiri Nəzərov Möhlət və digər dövlət strukturunun nümayəndələri iştirak edirdi. Fürsətdən istifadə edib tədbirdə iştirak edən insanlarımızı mina təhlükəsizliyinə dair maarifləndirdik.



Ağdamın Quzanlı qəsəbəsində 8 Noyabr Zəfər Günü münasibəti ilə kollecdə hərbi paraddan sonra biz də fürsətdən istifadə edib onları hərbi sursatlar və minalar haqqında maarifləndirdik. Bu görüşümüz tam yerinə düşdü çünki gələcəyin əsgərləri olan gənclərimizin  əvvəlcədən minadan gələ biləcək təhlükələrə qarşı məlumatlanmış oldular.



# AĞDAMIN BƏNÖVŞƏLƏR QƏSƏBƏSİNDƏ GÖRÜŞLƏRİMİZ





Ağdamın köçkün qəsəbələrində keçirilən mina maarifləndirməsi layihəsindən söhbət düşəndə Bənövşələr qəsəbəsini xüsusi qeyd etmək lazımdır. Bənövşələr qəsəbəsində yerləşən 2 saylı köçkün tam orta məktəbin direktoru Vəliməmmədova Tünzalə xanım kollektivi ilə birgə hər zaman bizlərə dəstək olmuşdur. Tünzalə xanımın icma fəalı kimi yeni görüşlərin təşkilində müstəsna rolu var idi. Məktəbin müəllim kollektivi ilə xoş münasibət qurulmuşdur. Orta məktəb hərbi təlim üzrə müəllimi icma fəalı Həsənov Şirvan təlimçilərimizlə birgə təlimlər keçirirdilər. Məktəbə təqdim etdiyimiz plakatlardan dərs vəsaiti kimi istifadə edilir.





## XƏBƏRDAR EDİCİ LÖVHƏLƏRİN BASDIRILMASI

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komisarlığı ( BMT QAK ) ANAMA və Beynəlxalq Avrasiya Mətbuat Fondunun ( BAMF ) birgə məşvərəti sayəsində qərara alındıki işğaldan azad olunmuş ərazilərdə yol kənarlarında xəbərdarlıq lövhələri quraşdırılsın. Bunun üçün basdırılacaq yerlərin müəyyənləşməsi məqsədilə icmalarda görüşlər keçirildi. İnsanlarımızın rahat görə biləcəyi yerlər müəyyənləşdi. Ağdam, Laçın, Şuşa,Tərtər, Xocavənd, Goranboy, Beyləqan və Ağcəbədi rayonlarının ərazisində hamının görə biləcəyi yol kənarında 200-dən çox xəbərdaredici lövhələr quraşdırıldı. Yolkənarında lövhələrin quraşdırılmasında əsas məqsəd daha çox insanımızı Partlayıcı Sursatların Təlükəsinə dair Marifləndirməkdir (PSTM).












## YEKUN

Ağcəbədi, Ağdam, Tərtər və Goranboy rayonlarının Məcburi Köçkün icmalarında Partlayıcı Sursatların Təhlükəsinə dair Mariflədirmə ( PSTM ) layihəsi uğurla başa çatdırıldı. Köçkünlərimizin əksər hissəsi mina marifləndirməsinə cəlb olundu. İcra Hakimiyyəti strukturları bu işdə bizlərə tam dəstək oldular. Dörd rayon üzrə otuz üç icmada maarifləndirmə işləri aparıldı. Otuz üç icmadan seçilmiş 200 icma fəalı 27627 sakinin maarifləndirilməsində bizə dəstək oldular. Otuz üç icmanın hər birində bir neçə dəfə görüşlər keçirildi. Maarifləndirmə layihəsinin nəticəsi olaraq 27627 mina təhlükəsi barədə məlumatı olan köçkünümüz oldu. Köçkünlərimiz üçün 3 qızıl qayda aydın oldu: 1.Tanımadığımız əraziyə girmək olmaz. 2.Bizə aid olmayan əşyaya əl vurmaq olmaz. 3.Mina gördükdə 102 və 112-yə zəng etmək. İcma fəalları gələcək layihələrdə bizlərə yenə də dəstək olmaq istədiklərini bildirdilər.






İnsanlarımız marifləndirmə işini BMTQAK, ANAMA,BAMF və ən əsası dövlət başçısı İlham Əliyevin Böyük Qayıdış üzvlərinə qayğısı kimi dəyərləndirir və maarifləndirmənin davamlı olmasını arzulayırlar. Təklif olaraq bildirirdilər ki, yaxşı olar ki, keçmiş təmas xətti və Ermənistanla sərhəd rayonlarında köçkün olmayan vətəndaşlarımızla da maarifləndirmə işləri aparılsın. Mina və müharibənin partlayıcı qalıqları təhlükəsi üzrə maariflənən vətəndaşımız nə qədər çox olarsa, insidentlərin sayı bir o qədər azalar.



